# "Şəhid qardaşıma məktub" müsabiqəsi

***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş Şəhidlərin Anım Gününə həsr edilmiş "Şəhid qardaşıma məktub"layihəsinə start verib. Bu mənada, ardıcıl olaraq həm I Qarabağ, həm də Vətən müharibəsinin qəhrəmanlarının gənclər arasında təbliği məqsədilə müxtəlif tədbir və layihələr həyata keçirilir. Təşkilatın üzvləri rayon ərazisində yaşayan şəhid ailələri və qazilər ilə sıx əlaqə saxlayır, onların problemlərinin həllinə çalışırlar.***



Məlum olduğu kimi, 2020-ci il xalqımızın çoxəsirlik tarixinə əbədi həkk olunub. Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə xilaskar ordumuzun şücaəti sayəsində otuz ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız təcavüzkar Ermənistanın quldur silahlı qüvvələrindən azad edildi. Haqq-ədalət, ərazi bütövlüyümüz uğrunda gedən 44 günlük Vətən müharibəsi möhtəşəm Zəfərimizlə nəticələndi. Vətənin müdafiəsinin qalibiyyət simfoniyasının yazılmasında savaşa könüllü qoşulmuş minlərlə gəncimiz həyatını, sağlamlığını qurban verdi. Müstəqilliyimiz, Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizəyə qatılmış qəhrəman fədailərimiz rəşadətli qələbə qazandılar. Odur ki, indi şəhidlərimizin uyuduğu məkan ziyarətgahımıza çevrilib.

Bu il Azərbaycan xalqı ilk dəfə olaraq, 27 sentyabrı möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə təsis edilmiş Şəhidlərin Anım Günü kimi qeyd edəcək. Bu məqsədlə YAP Nəsimi rayon təşkilatı qarşıdakı müddətdə silsilə tədbirlərin həyata keçirilməsini nəzərdə tutub. Belə tədbirlərdən biri rayon ərazisindəki ali məktəblərdə təhsil alan gənclər arasında "Şəhid qardaşıma məktub" inşa yazı müsabiqəsinin təşkilidir.

Mövcud koronavirus pandemiyasını nəzərə alaraq, müsabiqənin onlayn formatında keçirilməsi qərara alınıb. Bu günədək mindən çox gənc müsabiqədə iştirak etmək istəyini bildirib.

Layihə çərçivəsində müsabiqənin təşkili məqsədilə yaradılmış təşkilat komitəsi, şəhid ailələri və qazilərin də daxil olduğu münsiflər heyətinin ilk iclasını keçirmişdir. Müsabiqənin aprelin 16-da başlanması və mayın 16-da yekunlaşması qərara alınıb.

***Ə.BƏDƏLOV,***
***"Xalq qəzeti"***